**RƏŞAD KAZIMOV**
**Bakı Biznes Universiteti**
**rashadkazim424@gmail.com**
**Ünvan: Bakı şəhəri, Adil Məmmədov 10.**

# NORM ASC-DƏ HƏYATA KEÇİRİLƏN KAPİTAL QOYULUŞLARININ TƏHLİLİ METODİKASI

**Xülasə**

İstehsal və xidmət sferasında fəaliyyət göstərən müəssisələrin daim yenilənən və dəyişən müasir bazarlarda həyatda qala və rəqibləri ilə mübarizə apara bilməsi üçün uzunmüddətli strategiya və planlarının olması mühüm amildir. Bura bir çox tədbirlər daxil ola bilər ki, bunlardan biri də kapital qoyuluşları ilə bağlı həyata keçirilən tədbirlərdir. Kapital qoyuluşu müəssisənin fəaliyyətinin davamlılığının təmin edilməsində həyati rol oynayır. Bu əsasən istehsal müəssisələrində xüsusi fərq yaradır. Buna görə də bu məqalənin mövzusu Norm ASC-də kapital qoyuluşlarının həyata keçirilməsinin təhlili metodları bağlı seçilmişdir. Məqalədə kapital qoyuluşlarının təhlilinin əhəmiyyəti və həmçinin, Norm ASC-də tətbiq oluna biləcək metodlar haqqında məlumat verilir. Dünya təcrübəsində də, istifadə edilən bu metodların effektivliyi və müəssisənin inkişafında rolu əsas çatdırılan məqamlardandır. Müəssisənin son maliyyə hesabatına əsasən inkişaf yönümlü kapital qoyuluşlarının azlığı və bunu təkmilləşdirmək üçün tətbiq oluna biləcək metodlar qeyd olunmuşdur.

**Açar sözlər:** kapital, kapital qoyuluşunun təhlili, investisiya, investor, kapital ehtiyyatları.

İstənilən istehsal və ya xidmət sahəsində fəaliyyət göstərən müəssisə üçün investisiya yatırımlarından və kapital qoyuluşlarından əldə olunacaq mənfəət son dərəcə əhəmiyyətlidir. Ancaq mənfəət yönümlü və daha az riskli kapital qoyuluşu etmək üçün kapital qoyuluşunun uçotunu doğru şəkildə təhlil və analiz edə bilmək lazımdır. Kapital qoyuluşu uçotunun təhlili şirkətlərin və dövlət qurumlarının uzunmüddətli investisiyaların potensial gəlirliliyini qiymətləndirmək üçün istifadə etdikləri büdcə prosedurudur. Kapital qoyuluşu uçotunun təhlili avadanlıq, dəzgah və ya daşınmaz əmlak kimi əsas vəsaitləri əhatə edə biləcək uzunmüddətli investisiyaları qiymətləndirir. Bu prosesin məqsədi sərmayə qoyulmuş kapitaldan ən çox gəlir gətirə biləcək variantı müəyyən etməkdir. Müəssisələr gələcək dövr üçün layihədə pul axınlarının gözlənilən dəyərinin və layihənin risk-gəlir nisbətinin hesablanmasını əhatə edən kapital təhlilini aparmaq üçün müxtəlif üsullardan istifadə edə bilərlər. [*https://fastercapital.com/topics/what-are-the-various-methods-used-in-investment-analysis-for-startups.html*] Müstəqillik qazandıqdan sonra, davamlı inkişafda olan ölkə iqtisadiyyatımıza əhəmiyyətli töhfə verən şirkətlərdən biri də Norm Azad Səhmdar Cəmiyyətidir. Norm ASC tək ölkəmizin deyil, Qafqazın ən böyük sement istehsal edən şikətidir. Şirkət adından da bəlli olduğu kimi səhmdar cəmiyyəti tərəfindən idarə edilir. NORM Açıq Səhmdar Cəmiyyətinin maliyyə və idarəetmə

fəaliyyəti şəffaflıq prinsipi həyata keçirilir. Tanınmış beynəlxalq səviyyəli qurumlar şirkətin maliyyə hesabatlarının auditini aparmışlar və öz müsbət rəylərini əks etdirmişlər. Şirkətin 31 dekabr tarixinə başa çatan il üçün maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq hazırlanmışdır.Həmçinin idarəetmə hesabatları "Qiymətli kağızlar bazarı haqqında" AR Qanununun tələblərinə əsasən, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən 03 fevral 2016-cı ildə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar"a uyğun olaraq hazırlanır və maliyyə bazarlarına nəzarət orqanına təqdim edilir.Kapital qoyuluşları risklidir, çünki onlar uzunmüddətli istismar üçün nəzərdə tutulmuş aktivlərə çəkilən xərclərdir və onların geri qaytarılması çox vaxt aparır. Norm ASC-də kapital layihəsini qiymətləndirərkən əsas tələblərindən biri firmanın səhmdarları üçün tələb olunan kapitalın gəlirliliyi dərəcəsidir. .[ https://www.norm.az/] Ümumiyyətlə şirkətin illik maliyyə hesabatlarını 2020-ci ildən bu yana "DELOİTE." şirkəti aparır. Norm ASC-nin rəsmi saytında hər il illik hesabatlar ictimaiyyətə açıq şəkildə paylaşılır. Verilən məlumatlar əsasında deyə bilərik ki, son bir neçə ildə şirkətin səhmdar kapitalında artım qeydə alınmamışdır. 2022-ci il üçün şirkətin təqdim olunan hesabatından bir hissəyə baxaq:

**Şəkil 1.**

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Əmlak, tikili və avadanlıq | 12 | 153,753 | 155,468 |
| Qeyri-maddi aktivlər | | 1,316 | 1,014 |
| İstifadə hüququ olan aktivlər | | 1,006 | - |
| Əmlak, tikili və avadanlıq üçün verilmiş avanslar | | 191 | 1,391 |
| Cəmi uzunmüddətli aktivlər | | 156,266 | 157,873 |
| *Qısamüddətli aktivlər* | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 17 | 93,572 | 45,046 |
| Mal-material ehtiyatları | 14 | 33,694 | 38,505 |
| Ticarət debitor borcları | 15 | 8,616 | 10,349 |
| Digər aktivlər | 13 | 7,925 | 41,112 |
| Digər alınacaq vergilər | 16 | 7,629 | 5,971 |
| Cəmi qısamüddətli aktivlər | | 151,436 | 141,183 |
| Cəmi aktivlər | | 307,702 | 299,056 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| *Kapital və öhdəliklər* | | | |
| Səhmdar kapitalı | 18 | 161,963 | 161,963 |
| Bölüşdürülməmiş mənfəət | | 21,735 | 84,961 |
| Cəmi kapital | | 183,698 | 246,924 |

**Şəkil norm.az saytından götürülmüşdür**

Şirkətin səhmdar kapitalı 2021-2022-ci illərdə 161,963 min manat olmuşdur. Əslində şirkətin əvvəlki illərdəki hesabatlarına nəzər saldıqda səhmdar kapitalını eyni olaraq görürük. Bölüşdürülməmiş mənfəət isə əvvəlki illə müqayisədə xeyli miqdarda azalmışdır. Bu da öz növbəsində şirkətin kapitalının azalmasına səbəb olmuşdur. İndi isə eyni şirkətin eyni il üzrə kapitala dəyişikliklər hesabatına baxaq:

**Şəkil 2**.

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
*(Min Azərbaycan manatı ilə)*

| | Qeydlər | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| 1 yanvar 2021-ci il tarixinə qalıq | | 161,963 | 58,264 | 220,227 |
| Elan olunmuş dividendlər | 18 | - | (1,700) | (1,700) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | | - | 28,397 | 28,397 |
| 31 dekabr 2021-ci il tarixinə qalıq | | 161,963 | 84,961 | 246,924 |
| Elan olunmuş dividendlər | 18 | - | (102,700) | (102,700) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | | - | 39,474 | 39,474 |
| 31 dekabr 2022-ci il tarixinə qalıq | | 161,963 | 21,735 | 183,698 |

**Şəkil norm.az saytından götürülmüşdür**

Şəkildən də aydın olduğu üzrə şirkətin kapitalının azalmasına səbəb elan olunmuş dividentlərin ödənilməsi olmuşdur. Səhmdarların əldə olunan mənfəətin böyük hissəsini divident olaraq götürməsi istənilən müəssisənin inkişafında mənfi addım kimi qiymətləndirilir. Əslində Norm ASC-də kapital qoyuluşu etmək daha az riskli desək yanılmarıq.Çünki şirkətin fəaliyyət göstərdiyi sahədə ölkə daxilində yetərincə önə çıxmış müəssisə yoxdur. Həmçinin regionun ən böyük müəssisəsidir. Xüsusilə bazarda rəqiblərini üstələmək üçün yetərli imkanlara sahibdir. Şirkətin illik hesabatına nəzər saldıqda 2022-ci il üçün 34,373 min manat məbləğində məhdudiyyətli pul vəsaitlərinin götürüldüyünü və 10,608 min manat məbləğində isə əmlak, tikili və avadanlığın alındığını görə bilərik. Norm şirkətində kapital qoyuluşunu həyata keçirərkən beynəlxalq səviyyədə istifadə olunan təhlil metodlarından istifadə olunur. Ümumiyyətlə hər bir istehsal müəssisəsində kapital qoyuluşunun uçotunu apararkən bu metodlardan istifadə edilir. [*https://www.norm.az/governance/Annual/]* Kapitalın təhlili üçün ən çox yayılmış göstəricilərdən biri, layihədən gözlənilən gəlirin – gələcək pul vəsaitlərinin hərəkəti deyilən – bugünkü pulla nə qədər olduğunu təyin edilən xalis cari dəyər modelidir (Net Present Value). **Xalis cari dəyər** investisiya imkanlarını müqayisə etmək və ya investisiya imkanının əlverişli olub olmadığını ölçmək üçün istifadə edilən metodlardan biridir. Bu metodda investisiyaya və ya kapital qoyuluşu üçün çəkilən xərclərin və bundan gələcək gəlirlərin hər biri, yatırımın risk səviyyəsinə uyğun faiz dərəcəsi ilə bugünki dəyəri tapılaraq hesablanır və nəticədə alınan cavab müsbətdirsə əlvərişli, mənfidirsə əlverişsiz olaraq qiymətləndirilir.İlkin kapital qoyuluşu xərcləri gözlənilən pul axınlarının indiki dəyərindən çıxıldıqdan sonra layihə meneceri layihənin davam etdirilməsinə dəyər olub olmadığını müəyyən edir. Xalis cari dəyəri hesablama üçün aşağıdakı düsturdan istifadə edilir:

$$NPV = \sum_{t=0}^{N} \frac{CF_t}{(1+r)^t}$$

Burada, $CF_t$ = t tarixindəki gözlənilən net pul axınları, N = İnvestisiyanın müddəti, r = faiz dərəcəsi (Bu investisiyanın gəlirlilik faizidir. Yəni bu məbləğ bu investisiyaya qoyulmaq əvəzinə, bir banka depozit qoyulsa idi bankdan alınacaq faiz bu faizi ifadə edir (opportunity cost for the investment)). [ *"Engineering – Economics for Capital İnvestment Analysis" – Tung AU, Thomas P.A. AU – Prentice Hall, Englewood Cliffs, NewJersey 07632, səh., 81-83, 131-134*] Fərz edək ki, Norm ASC-də müəyyən bir layihəyə kapital qoyuluşumuz və ya investisiyamız 4,8 milyon manatdır. Yatırımımızın birinci ilin sonunda 1,4 milyon, ikinci ilin sonunda 2,4 milyon, üçüncü ilin sonunda 2,6 milyon gəlir gətirəcəyi proqnozlaşdırılır. Faiz dərəcəsini 15% olaraq götürərək hesablayaq:

$$NPV = -\$4{,}8 + \frac{\$1{,}4}{(1+0{,}15)^1} + \frac{\$2{,}4}{(1+0{,}15)^2} + \frac{\$2{,}6}{(1+0{,}15)^3}$$
$$= -\$4{,}8 + \$1{,}217 + \$1{,}815 + \$1{,}709 = -\$0{,}059\ milyon$$

Aldığımız cavab 0-dan kiçik olduğu üçün bu layihəyə kapital qoyuluşu edilməyəcəkdir. Əslində NPV və DCF(Diskontlaşdırılmış pul axını)-nin bir-biri ilə əlaqəlidir. Xalis carı dəyər kapital qoyuluşları və gələcək pul axınları arasındakı fərqi göstərirsə, DCF isə yatırımın gələcəkdəki dəyərini ifadə edir. Xalis cari dəyərə bənzəyir, eyni zamanda bir az fərqlidir. DCF təhlili əslində NPV hesablamasının bir hissəsidir, çünki bu, gələcək pul axınlarının investisiyaya uyğun olub-olmadığını müəyyən etmək üçün endirim dərəcəsindən və ya alternativ gəlir dərəcəsindən istifadə prosesidir. DCF hesablanarkən başlanğıc xərcləri nəzərə alınmır, sadəcə hər il üçün gələn pul axınları hesablanır. Xalis cari dəyər hesablanarkən isə sıfırncı il üçün maliyyə xərcləri nəzərə alınır və gələcəkdəki pul axınları cəmindən çıxılır. DCF – nin kapital qoyuluşlarını və investisiyaları dəyərləndirmək üçün daha əlverişli olduğu düşünülür. İnvestorlara gələcək üçün arzulanan məbləğin bugünkü dəyərini öyrənmək daha maraqlı gəlir. [*https://www.investopedia.com/terms/c/capital-investment-analysis.asp*] Yekun olaraq nəzər yetirsək, hər iki metod kapital qoyuluşlarının təhlili və gələcək dövrdə hansı nisbətdə faydalı olacağını öyrənmək üçün əhəmiyyətli ölçü vasitələridir və şirkətin uzunmüddətli aktivlərə yatırımları, həmçinin riskli kapital qoyuluşları üçün istifadə oluna bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. "Engineering – Economics for Capital İnvestment Analysis" – Tung AU, Thomas P.A. AU – Prentice Hall, Englewood Cliffs, NewJersey 07632
2. https://www.norm.az/governance/Annual/
3. https://fastercapital.com
4. https://bbu.edu.az/az/library
5. https://www.investopedia.com

## ANALYSIS METHODOLOGY OF CAPITAL INVESTMENTS IMPLEMENTED IN NORM OJSC

**Summary**

It is important to have long-term strategies and plans for enterprises operating in the sphere of production and services to survive in the ever-changing and changing modern markets and to compete with their competitors. This can include many measures, one of which is the measures implemented in connection with capital investments. Capital investment plays a vital role in ensuring the sustainability of the enterprise. This makes a special difference mainly in manufacturing enterprises. Therefore, the topic of this article is related to the methods of analysis of the implementation of capital investments in Norm OJSC. The article provides information on the importance of capital investment analysis and methods that can be applied at Norm OJSC. In the world experience, the effectiveness of these methods used and their role in the development of the enterprise are among the main points to be conveyed. According to the last financial report of the enterprise, the lack of development-oriented capital investments and the methods that can be applied to improve it were noted.

**Keywords**: capital, capital investment analysis, investment, investor, capital reserves

## МЕТОДИКА АНАЛИЗА КАПИТАЛЬНЫХ ВЛОЖЕНИЙ, ВНЕДРЕННАЯ В ОАО «НОРМ»

**РЕЗЮМЕ**

Предприятиям, работающим в сфере производства и услуг, важно иметь долгосрочные стратегии и планы, чтобы выжить на постоянно меняющихся и меняющихся современных рынках и конкурировать со своими конкурентами. Сюда может входить множество мер, одна из которых – меры, реализуемые в связи с капитальными вложениями. Капитальные вложения играют жизненно важную роль в обеспечении устойчивости предприятия. Особое отличие это имеет преимущественно на производственных предприятиях. Поэтому тема данной статьи связана с методами анализа осуществления капитальных вложений в ОАО «Норм». В статье представлена информация о важности анализа капитальных вложений и методах, которые могут быть применены в ОАО «Норм». В мировом опыте эффективность используемых методов и их роль в развитии предприятия являются одними из основных моментов, которые следует донести.

**Ключевые слова:** капитал, анализ капитальных вложений, инвестиции, инвестор, резервы капитала

**Redaksiyaya daxil olma tarixi: 15.01.2024**
**Çapa qəbul olunma tarixi: 05.02.2024**
**Rəyçi: Dos., X.C.Əzizova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**